*(Əvvəli ötən sayımızda)*

# ÜSTÜN OLAN İNSANLIQ

## *Məlahət Soltanqızının "Xəyanətin bədəli" poeması haqqında*

Məlahət Soltanqızı "Yarımçıq ömrün tarixçəsi" adlı kitabına topladığı poemalarının hər birində ayrı-ayrı adamların timsalında cəmiyyətin bir tərəfinə işıq salmağa çalışır. Əslinə qalsa, müəllifin məramı, məqsədi odur ki, hər kəs cəmiyyətdə onu nəyin gözlədiyini qabaqcadan bilsin. Yəni cəmiyyətə qovuşarkən kifayət qədər hazırlıqlı olsun. Yoxsa, o elə mühitə düşə bilər ki, o mühitdə arzuları ayaqlanar, istəkləri puça çıxar. Onu kimsə görmək istəməz, tanımaq istəməz, ancaq öz məramına, məqsədinə uyğun onu istifadə üçün yararlı hesab edər.

Həyatın qəddar olduğu haqqında deyilənlərə inkar gətirmək istəməzdim. Ancaq, əlbəttə, həyatın bütövlükdə qəddar adamlardan ibarət olduğunu da təsdiq etmək olmaz. Axı həyatda da elə insanlar var ki, onlar bütün varlığı qaranlığa bürünmüş olan hər hansı kəsin qarşısına çıxır, onun qəlbindəki bütün qaranlıqları vurub dağıda bilir. Biz artıq Məlahət Soltanqızının poemalarında belə situasiyalarla qarşılaşmışıq. Qəddar insanlar da görmüşük, başqasının qayğısına qalaraq özünü onun yolunda fəda etmək istəyən də görmüşük. Əlbəttə, gecənin qaranlığında ananın qucağından uşağı götürüb onu özünəməxsus qəddarlıqla edam yerinə aparmaq - bu heç bir insanlığa sığan şey deyil. Yəni bununla Məlahət Soltanqızı demək istəyir ki, belələri də var. Özü də bu qəddarlıqda olan insan üçün özününkü və özgəninki deyilən bir ayrım yoxdur. Belələrinin ancaq öz istəkləri var və həmin istəklə həyatlarını idarə edir, qarşılarına çıxan hər hansı çətinliyi məhz öz mənafelərinə uyğun həll etməyə çalışırlar. İndi Məlahətin "Xəyanətin bədəli" poemasına qayıtsaq, bir-iki məqama işıq gətirməli olacağıq. Məlahət çox yaxşı bilir ki, xəyanət deyilən anlam cəmiyyətin həyatına hansı fəsadlar gətirir. Hətta "Dədə Qorqud" kitabını yada salsaq, Sarı Çobanın Oğuz elinin mənəvi-əxlaqi dəyərlərinə xəyanəti nəticəsində təpəgöz dünyaya gəlir. Şübhəsiz, mif dastanda bu həqiqəti ona görə yaşadır ki, insanlar unutmasınlar, onların xəyanətləri, həyat prinsiplərinə zidd əməlləri, əxlaqi dəyərləri ayaqlamaları, təkcə özləri üçün bəla gətirmir. Onların mənsub olduğu etnosa, xalqa, ölkəyə, vətənə bəla gətirir.

Demək, tənhalığa düçar olan, ağır vəziyyətə düşən hər hansı şəxsin özü də əslində cəmiyyətdə tək deyil, kimlərsə tapıla bilər ki, ona dayaq olsun, yardımçı olsun. İndi görək, Şahnabat məhz bu qaranlıqlardan necə keçməyə çalışır. Ən yaxşısı, müəllifin öz təəssüratlarını dinləməkdir:

O, insan axtarırdı,
Onu duysun, anlasın
O, insan axtarırdı ona mehrini salsın.
Dərdini kimə desin?
Kimdən kömək istəsin?
Gah dayandı, gah durdu
Axır parça dükanında
Özünə bir iş buldu.
Dükanın sahibi bir ağsaqqal adamdı
Dedi - artıq dükanda
hər işə gücüm yetmir.
Övladım da yox mənim tutsun bir qanadımdan.

Təsirli misralardır. Əgər varislik qırılırsa, bunun özü də cəmiyyət üçün böyük bəladır. Yaxşı adamların varisinin olmaması həmin yaxşı adamların təmsil etdikləri yaxşılıq zəncirinin qırılması deməkdir.

Müəllif təqdim olunan mətndə antik yunan fəlsəfəsindən gələn bir ifadəni yada salır. Əslində onun Diogenlə bağlı əhvalatı yada salmaq məqsədi yoxdur. Sadəcə kimsəsiz, köməksiz olan Şahnabatın böyük şəhərdə həyat üçün, dolanışıq üçün imkan axtardığını yazmaq istəyir. Amma iş burasındadır ki, onun ifadə tərzi "O insan axtarırdı, ona mehrini salsın" şəklində misraya gəlib. Və bununla müəllifin idealı cəmiyyəti işıqlığa çağıracaq insan olduğuna şübhə yeri qoymur. Qədim Ellinlərin fəlsəfi düşüncəsində belə bir pritça zəmanəmizə gəlib çatıb. Günün günorta çağı filosof Diogen Aqorada gəzir. Ondan soruşurlar ki, sən bu gündüz vaxtı nə üçün çıraqla gəzirsən? Diogen cavab verir ki, mən adam axtarıram.

Əlbəttə, Diogen yaxşı bilirdi ki, onun ətrafındakıların hamısı adamdır. Əlbəttə, Diogen yaxşı bilirdi ki, gündüz vaxtı Aqorada çırağa ehtiyac yoxdu. Ancaq Diogen bununla öz müasirlərinə anlatmaq istəyir ki, həyat təkcə sizin gördüklərinizdən ibarət deyil. Həyatın görünməz tərəfləri də var. Bunun üçün bəsirət gözü açıq olan adam gərəkdir. Hər kəs həyatın örtülü tərəflərini görmək imkanına malik deyil. Məlahət Soltanqızı əhvalatı davam etdirir və biz istər-istəməz böyük şəhərdə adam axtaran Şahnabatı izləməli oluruq. Necə olacaq, hara gedəcək, necə insanların əhatəsinə düşəcək? Əlbəttə, belə sualların sayını çoxaltmaq olar. Tanımadığın böyük şəhərdə, tanımadığın insanların əhatəsində necə yaşamağın yolunu hər kəs özü tapmalıdır. Müəllif öz qəhrəmanına bəsirət gözü verir. Onu kifayət qədər diqqətli olmağa vadar edir. Bununla öz qəhrəmanını gözübağlı şəkildə cəmiyyətin içinə buraxmır. əsəri biz də izləyə bilərik: *"Sənə asan gəlməsin, bax gör neçə çeşid var. Mal alan razı qalsın gərək bizim xidmətdən Səbirlə dinləyib hər müştərini Gərək bezməyəsən eyni xidmətdən Hər kəsin ağzından bir avaz gəlir"*. Göründüyü kimi, Şahnabat artıq kifayət qədər axtardığına uyğun bir insanla qarşılaşıb. Əlbəttə, insanların kimliyinə dair qabaqcadan hökm vermək, fikir yürütmək olmaz. Çünki həyatın elə gəlişmələri var ki, bu zaman insanın təbiətindəki zəif bir keyfiyyət o saaat üzə çıxar. Və beləliklə, birinin haqqında yaxşı düşündüyün halda bunun tam özgə bir mənzərəsi ilə qarşılaşmalı olarsan.

Bir dükandar - sahibkar Şahnabatın urcahına çıxır. Şahnabat onu dinlədikcə necə saf, sağlam bir insan olduğunu hiss edir. Ən başlıcası, bu sahibkar ona sadəcə işi yerinə yetirməli olan bir işçi kimi baxmır. O, Şahnabatı işini bacaran, öz işindən qorxmayan, zəhmətdən çəkinməyən bir insan kimi yetirmək qərarına gəlir.

Dükan sahibi Şahnabata başa salır ki, əsil işçi o zaman insanların hörmətini qazana bilir. Ətrafında müsbət aura yaradır. Bunun üçün gərək işini yaxşı biləsən, insanlara hörmətlə yanaşmaqdan bezməyəsən. Hər bir kəsi öz doğman kimi qarşılayasan. Adamlara hörmətli yanaşanda adamlar səni unutmur. Sənin əhatə dairəndə, çevrəndə olmağa üstünlük verirlər. Əlbəttə, bütün bunlar ticarətin psixoloji sirləridir. Və hiss olunur ki, sahibkar da Şahnabatı işini mənimsəmək üçün dərindən hazırlamağa çalışır. Şahnabat özünü bəxtəvər hiss edir. Əslinə qalsa, kimsəsiz bir qız üçün şəhərdə belə bir iş tapmaq, üstəlik sahibkar da ona öz övladı kimi yanaşırsa, bunun heç bir əvəzi yoxdur:

Könül oxşayaraq görsən işini,
Allah da yetirər halal ruzini
Üzündən təbəssüm əskik olmasın,
Üzün bizə tutan peşman olmasın.
Gördüyün hər qumaş bir əl işidir
Böyük ustaların nümayişidir.
Namusla, şərəflə görülən bir iş
Vicdan rahatlığı, bu da bir vərdiş.
Allah heç sevməyir bazar yerini
Çünki bazarda hamı aldadır bir-birini
Ədalət naminə işini düz gör -
Şahnabat dinlədi ağsaqqalın sözünü.

Buraya qədər biz sanki Şahnabatı təlim məqamında görürük. O, ustad qarşısındadır. Özündən böyük insanın, təcrübəli bir adamın, ən başlıcası, iş sahibinin ona öyrətdiklərini dinləməkdədir. Əlbəttə, elə gənclər var ki, nə qədər çalışsan da, ən müdrik kəlamlarla, ona həyat həqiqətlərini başa salmaq istəsən də, anlamaq istəmir. Özünün çürük niyyətlərinin arxasınca inadla qaçmaqda davam edir. Əlbəttə, belələrinin həyat yolu çox dəhşətli qaranlıqlardan keçəcək. Nəhayət, həmin qaranlıqlarda həyatının mənasını itirəndə biləcək ki, o, səhvləri harada, nə vaxt və necə edib? Təbiidir ki, o zaman çox gec olacaq.

Məlahət Soltanqızının qəhrəmanı kifayət qədər ağıllıdır, diqqətlidir. O öyüd verən, məsləhətli yol göstərən sahibkarın dediklərini tam diqqətlə dinləyir. Gənc, təcrübəsiz varlığına yığır. Çünki onun həyatı təkcə özü üçün deyil, o həm də kənddə qoyub gəldiyi xəstə atasını, doğmalarını xatırlayıb onların həyat tərzinə təsir göstərməyə çalışmalıdır. Onların dolanışığı ağırdır və bunları Şahnabat yaddan çıxarmır.

Əlbəttə, elə təsadüflər var ki, bizim istəklərimizə uyğun gəlmir. Şahnabatın da istəklərinə uyğun gəlməyən məqamlar tezliklə onun qarşısına çıxacaq. Ən başlıcası, himayədar olan insanın necə əzablı, səhhəti ilə bağlı necə çətin günlər yaşadığını hiss edir.

Şahnabat onu himayəyə alan insanı diqqətlə dinləyir. Həyatının üfüqlərində onu bir günəş kimi görür. O nə qədər əziz, doğma bir insandır. Belələri hər vaxt, hər kəsin qarşısına çıxmır. Amma təəssüf ki, Şahnabatı himayə edən bu insan ağır ürək ağrılarından əzab çəkir. Onun üçün artıq həyatın maddiyyat baxımından dəyəri yoxdur. Onun gözündən dünyanın maddi varı, dövləti düşüb. Demək olar ki, bu barədə onun həyatdan heç bir təmənnası yoxdur.

Şahnabat dinləyir. Həyatının son günlərini yaşamaqda olan bu insanın dediklərini necə varsa, eləcə də yaddaşına yığmağa çalışır. O bir gənc olsa da, öz fəhmi ilə hiss edir ki, bu insan həyatda yaşamağın yolunu kifayət qədər mükəmməl öyrənib yaxşı bilir. Onun üçün həyatın elə bir sirri yoxdur ki, bu sirdən onun başı çıxmasın.Şahnabat reallığı yaxşı görür. Hətta onu himayə edən bu insanı itirmək məqamına çatdığını da hiss edir. Əlbəttə, bu, Şahnabatı çox vahimələndirir. Hələ ki o, həyatının dəyişilməmiş bir səhifəsini yaşayır, daha doğrusu, yaxşı mənada dəyişilmiş səhifəsini.

*Başını yellədi səssiz-səmirsiz,*
*Qəlbində Allaha şükür elədi.*
*Yaxşı bir adama rast gəlmiş demək*
*Allahın tanıyan yamanlıq etməz.*
*Uzun zaman işlədi ağsaqqalın yanında*
*Bir ata nəvazişi, bir ata qayğısıyla*
*Hər vaxt halın soruşdu,*
*heç haqqını kəsmədi.*
*Xəstə idi ağsaqqal, qəlbin tutub durmuşdu,*
*Ürəkdəki ağrılar qanadını qırmışdı.*
*Görəymiş dodaqları, görəymiş dırnaqları*
*Qəlbin xəbərçisiydi.*
*Nəfəsi daralanda rəngi tez dəyişirdi*
*Çox çəkmədi, bu azar aldı onun canını*
*Bir övlad həsrətiylə köçüb getdi həyatdan.*

Bu mətni izlədikcə biz təkcə həyatın dəyişməyini görmürük, həm də Şahnabatın tale yolunun uğurlu dəyişmələrini də müşahidə edirik. Bununla da müəllif əslində insanlığın çıxış yolu ilə bağlı düşüncələrini ümumiləşdirməyə çalışır. Əsas odur ki, adamlar onları əhatə edən mühitdən baş çıxarsınlar. Mühiti düzgün qavrasınlar. Yalnız bu yolla özünü qarşına çıxan çətinliklərdən hifz edə bilər. Həyatının normal axarına təminat tapa bilərsən. Əks təqdirdə, insan üçün yaşamaq çətin olardı. Şahnabat qarşısına çıxan insanın mənəvi böyüklüyünə inanır, ona hər cür hörmət, sayğı göstərir. Amma hər bir insan da həyatının bir dövründə gücünü enerjisini sərf edir və elə bir vaxt gəlib çatır ki, həyata gözlərini əbədi yumur. Əsas odur ki, bu ana qədər kim necə yaşayıb. Özünü insanlığa layiq bir insan kimi təsdiq edibmi? Çox güman ki, bu suala hər kəs tərəddüdsüz, asanlıqla cavab verə bilməz. Çünki bir çox hallarda iradəsinin zəifliyi sayəsində səhvlərə yol verib. Bəzən isə tamahının, istəyinin qurbanı olub. Bu istək, bu tamah insanın çox çətinliklə qalib gələ biləcəyi güc mənbəyidir. Ancaq elə qüdrətli insanlar var ki, onlar sözün həqiqi mənasında öz mənəvi mühitlərində tamahları ilə savaşa bilirlər. Tamahlarına qalib gəlməyin yolunu tapa bilirlər. Bu zaman beləsini biz şəxsiyyət kimi görürük. Bunlar öz yerində, hələ görək, Şahnabatın taleyinə bundan sonrakı hadisələr daha nələr gətirəcək.

Allah məsləhət bilsə bir övlad bəxş edərdi
Şükür yaradana, şükür Rəbbimə
Belə məsləhətmiş Allahın işi
Özü yetişdirər kalı, dəymişi
İnsan yaradammaz bir qarışqanı
Bu göy də, bu yer də Allahın işi.
Hər insan Allahın böyük əsəri
Şikayət etməsin kimsə halından.
Zülmü özlərinə peşə edənlər
Allahın gözündən yaman düşərlər.
Ədalət axtarma bazar yerində
Tacirin, tüccarın andı yalandır.
Allaha and içər qəpikdən ötrü,
Qəssabın, dəllalın andı yalandı.

Nəhayət, Şahnabatı gözləyən təhlükə artıq onun həyatının giriş qapısına yaxınlaşıb. O bir yaxşı insanı itirəndən sonra necə tənhalığa düşdüyünü, necə gərgin bir həyata düçar olacağını anlamaqdadır. Burada müəllifin insan xisləti ilə bağlı düşüncələri də yer alır. Bazar mühiti, mənəvi dəyərlər, doğru və yalan - müəllif düşüncəsində üz-üzə gəlir. Əslinə qalsa, müəllif bu düşüncələrlə həm də həyatın görünə bilməyən tərəflərinə işıq salmağa çalışır.

***(Davamı var)***